# Şəhidlərimiz ehtiramla anıldı





Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki Lökbatan Tibb Mərkəzində 27 sentyabr Vətən müharibəsinin başlanması ilə bağlı Anım günü tədbiri keçirildi. Öncə Dövlət himni səsləndirildi.

Sonra tədbiri açan mərkəzin direktoru Elçin Hüseynov 44 günlük Vətən müharibəsində ordumuzun qəhrəmanlığından, şücaətindən, Azərbaycan xalqının cənab Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsindən söz açdı və "Dəmir yumruq"un erməni faşizminin başını əzməsinə diqqət çəkdi.

Tədbirdə Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ictimai birliyinin sədri Mehdi Mehdiyev, birliyin Qaradağ rayon təşkilatının sədri Maqsud Heydərov, hərbi mahnılar ifaçısı Şəmistan Əlizamanlı, Lökbatan Tibb Mərkəzinin baş həkimi Cəmilə Xanmuradova, mərkəzin doğum evinin baş həkimi Şəfəq Yusifova, cərrah İlyas Həmidov, baş tibb bacısı və əsgər anası Mina Həsənova çıxış edərək Vətən uğrunda şəhid olmuş əsgər və zabitlərimizin qəhrəmanlıqlarından danışdılar, onları ehtiramla yad etdilər, qazilərimizə şəfa dilədilər. Tədbirdə Şəmistan Əlizamanlı hərbi mahnılar ifa etdi. 166 saylı orta məktəbin 4a sinif şagirdi Məryəm Orucova isə Vətən haqqında şeir söylədi.

Tədbirdən sonra mərkəzin kollektivi və qonaqlar Lökbatan qəsəbəsində yerləşən Şəhidlər xiyabanını ziyarət etdilər.

***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 28 sentyabr.- S.14.